

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 211 (23.623)

*4 dekabr 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi – COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyev sessiyada videoformatda çıxış edib.

Dövlətimizin başçısı çıxışda Qoşulmama Hərəkatının üzvü olan 120 dövlət adından çıxış etməkdən şərəf duyduğunu bildirib. Ölkəmizin başçısı vurğulayıb ki, 2020-ci il ərzində dünya ictimaiyyəti müasir tariximizin ən ciddi səhiyyə böhranı ilə üzləşib. Pandemiya ədalətli və bərabərhüquqlu dünya nizamına nail olmaq üçün mövcud fundamental problemlərin daha da artmasına səbəb olmuşdur. Hazırda dünyada 60 milyondan artıq yoluxma halı qeydə alınıb və 1 milyondan çox insan həyatını itirib. Pandemiyanın misli görünməmiş universal fəsadlarının aradan qaldırılması üçün qlobal səylərə töhfə vermək və Qoşulmama Hərəkatına üzv dövlətlərə operativ, adekvat və əhatəli yardımın göstərilməsi məqsədilə Azərbaycan Qoşulmama Hərəkatının Sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı Təmas Qrupunun onlayn Zirvə görüşünü təşkil etmişdir. Həmin toplantının praktiki nəticəsi olaraq Hərəkata üzv dövlətlər COVID-19 ilə mübarizə və koronavirusla bağlı Qoşulmama Hərəkatının üzv dövlətlərinin əsas humanitar, tibbi ehtiyac və tələblərinə dair məlumat bazasının yaradılması üçün işçi qrupun təsis edilməsi qərarına gəlmişlər. Pandemiya ilə bağlı tədbirlərin görülməsi zamanı Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının müəyyənləşdirilməsi üçün Hərəkatın məlumat bazasını istinad mənbələrindən biri kimi istifadə edir. Qoşulmama Hərəkatı bütün ölkələrin dərman, vaksin və tibbi avadanlığa münasib, maneəsiz və bərabər çıxışının əhəmiyyətini vurğulayır.

Prezident İlham Əliyev bildirmişdir ki, COVID-19 əleyhinə bir çox vaksinlərin tədqiqatının davam etdiyi bir vaxtda biz kliniki sınaqların uğurlu nəticələrini gözləyir və ümid edirik ki, təhlükəsiz və təsirli vaksin tezliklə hazır olacaq və onun hamı üçün münasib qiymətə paylanılması təmin ediləcəkdir. Biz bu prosesdə ÜST-nin əlaqələndirmə səylərini yüksək qiymətləndirir və vaksin hazır olduğu zaman təşkilatın insanların belə bir vaksinə bərabər çıxışının təmin edilməsində rolunun vacibliyini vurğulayırıq.

Dövlətimizin başçısı qeyd edib ki, beynəlxalq ictimaiyyət yalnız birlik, çoxtərəfli əməkdaşlıq, həmrəylik və insan hüquqlarına hörmət əsasında COVID-19-un fəsadlarının aradan qaldırılması və indi yayılmaqda davam edən pandemiyadan xilas olmaq üçün strategiyalar hazırlaya bilər.

## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 dekabr 2020-ci il*

*Dövlət proqramı icra olunur*

## Rəqəmsal ödəniş xidmətlərinin əhatə dairəsi genişlənir

*Son illərdə rəqəmsal mühitdə ödəniş texnologiyaları sürətlə inkişaf edir və yeni xidmətlər meydana çıxır. Bu inkişafın nəticəsində insanlar hər hansı məhsulları almaq və xidmətlərdən istifadə etmək üçün nağd vəsaitə ehtiyac hiss etmirlər. Yeni rəqəmsal ödəniş xidmətlərində tətbiq edilən metodların təhlükəsizliyi də bu sahədə texnologiyadan daha geniş istifadəyə səbəb olur.*

Muxtar respublikamızda da nağdsız hesablaşmaların artırılması, elektron ödəniş xidmətlərinin inkişafı və bu sahədə innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası muxtar respublikada rəqəmsal ödəniş infrastrukturunun inkişaf etdirilməsi, yeni xidmətlərin tətbiqi və əhatə dairəsinin genişləndirilməsi istiqamətində hazırlanmışdır. Proqramın giriş hissəsində də deyildiyi kimi: "Rəqəmsal ödəniş sistemi müasir dünyanın əsas iqtisadi çağırışlarından biri olmaqla vergi sisteminin təkmilləşdirilməsində, maliyyə sabitliyinin və ümumilikdə, iqtisadi inkişafın təmin edilməsində mühüm əhəmiyyətə malikdir".

Proqramın icrası Naxçıvanda POS-terminal, bankomat və ödəniş terminallarının sayının artması ilə müşayiət olunur. Belə ki, üçüncü rübdə banklar tərəfindən 59 təmassız ödəniş etməyə imkan verən POS-terminal və 4 çoxfunksiyalı ödəniş terminalı quraşdırılmışdır.

Muxtar respublika iqtisadiyyatının müasirləşməsində nağdsız ödəniş sisteminin genişləndirilməsinin rolu danılmazdır. Nağdsız dövriyyənin əsas şərtlərindən biri POS-terminalların tətbiqinin çoxaldılmasıdır. Üçüncü rübdə proqramın icrasına uyğun olaraq 14 publik hüquqi şəxs statuslu müəssisədə POS-terminal quraşdırılması nağdsız ödənişlər sahəsində maddi-texniki bazanın möhkəmləndirilməsinə xidmət etmişdir.

Dövlət proqramının icrası istiqamətində muxtar respublika ərazisində fəaliyyət göstərən POS-terminal quraşdırılmış ticarət, iaşə və digər xidmət obyektləri sahiblərinin ödəniş kartları ilə təmin edilməsi ödəniş xidmətlərinin effektivliyinin artmasına şərait yaratmaqdadır. Həyata keçirilən tədbirlər vergiödəyicilərin bir sıra ödənişləri nağdsız şəkildə ödəməsi üçün yeni imkanlar formalaşdırır. POS-terminal quraşdırılarkən təqdim edilmiş kartlar vasitəsilə iyul-sentyabr aylarında 102 vergiödəyicisi tərəfindən 48 min 46 manat, şəxsi kartları vasitəsilə 135 vergiödəyicisi tərəfindən 52 min 783 manat məbləğində vergi və sosial ayırmaları nağdsız qaydada ödənilməsi təmin edilmişdir. Bütün bunlarla yanaşı, özəl sektorda işçilərin əməkhaqlarının nağdsız formada ödənilməsi istiqamətində görülən işlər də səmərəli xarakter daşıyır. Qeyd etmək lazımdır ki, proqramın icrasına uyğun olaraq üçüncü rübdə 123 vergiödəyicisi üzrə 373 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin olunmuşdur.

Nağdsız ödənişlərin həcminin artırılması üçün stimullaşdırıcı tədbirlərin təşkili effektiv nəticə verməkdədir. Görülən işlər insanları rəqəmsal ödəniş xidmətlərindən istifadəyə həvəsləndirir. Üçüncü rübdə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən bir sıra güzəştlər tətbiq olunmuş, ödəniş kartları ilə bağlı kampaniyalardan 128 müştəri istifadə etmişdir. Onların sifariş etdikləri kartların dəyəri üzrə 50 faiz həcmində endirim əldə etmələri təmin olunmuşdur. İyul ayında "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin 13-cü tirajı keçirilmiş, 400 manatdan yuxarı nağdsız ödəniş aparan 426 vətəndaşa 25 min manat dəyərində müxtəlif hədiyyələr təqdim edilmişdir.

"2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" çərçivəsində tədbirlərin davam etdirilməsi Naxçıvanda nağdsız əməliyyat həcminin artmasına təkan verəcəkdir ki, bu da muxtar respublikanın maliyyə sisteminə çox müsbət təsir göstərəcəkdir.

**"Şərq qapısı"**

*Jurnalistin qeydləri*

# Dağların başında ərənlər yaşar

***Yeddi ildir, media sahəsində çalışan biri kimi, dəfələrlə ön xətdə çəkilişlərdə olmuşam, əsgər və zabitlərimizin xidməti fəaliyyətini işıqlandırmışam. Hər dəfə müqəddəs missiyanı yerinə yetirən oğullarla görüşə gedəndə eyni qürur və həyəcanla yola çıxmışam. Amma budəfəki səfərin mənim üçün ayrı bir mövzusu və yeri olacaqdı. Çünki onlar bizi Şuşaya, Laçına, Kəlbəcərə, Füzuliyə, Ağdama və işğaldan azad olunmuş digər şəhər və rayonlarımıza çatdıran qalib Azərbaycan Ordusunun əsgərləridir. İndi biz onların sayəsində "Salam, Qarabağ, biz gəlmişik" deyə bilirik. Qalib əsgər barədə danışmağı, bu xoşbəxtliyi duymağı jurnalist taleyimə yazdığı üçün Uca Yaradana şükür edir və dağların başında yaşayan ərənlərlə görüşə tələsirəm. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Yuxarı Buzqov kəndi istiqamətindəki bölmələrində uca dağları, şiş qayaları özünə səngər seçib düşmənin qorxulu röyasına çevrilən Azərbaycan əsgəri barədə danışacağıq. Payızın sazaqlı küləyindən mətin, qışın soyuğundan sərt, qanında və ruhunda yenilməzlik olan qalib əsgər barədə...***





Cəhriçay boyunca yerləşən kəndləri bir-bir arxada qoyub üzü dağlara sarı gedirik. Sinəsi sis, dumanla örtülən, bəziləri isə payızın ilk aylarından etibarən bəyaz örpəyə bürünən dağlar, Azərbaycan əsgərinin od-ocağına, yurd-yuvasına çevrilən dağlar, siz necə də vüqarlı, əzəmətlisiniz. Ruhuma hakim kəsilən bu düşüncələrin müşayiəti altında Aşağı Buzqov kəndinə çatırıq. Bir neçə il bundan öncə "Şərq qapısı" qəzetinin arxivində "Sərhəd kəndlərində vəziyyət necədir?" sərlövhəli yazıya rast gəlmişdim. 1992-ci ildə qələmə alınan yazıda müəllif sosial problemlərlə yanaşı, işğalçı ermənilərin Buzqov və Gərməçataq kəndlərinə etdiyi aramsız hücumlardan da bəhs edirdi. Həmin vaxt Naxçıvanın sərhəd yaşayış məntəqələrində baş verən hadisələr ölkədəki xaosun, qeyri-sabit həyat tərzinin tərkib hissəsi idi.

İndi burada qış tədarükü üçün qovurma hazırlayanı da, payız meyvələrini toplayanı da, mal-qarasını örüş yerlərinə aparanı da, işlədiyi kənd məktəbinə və başqa dövlət qurumlarına gedib-gələni də görə bilərsiniz. Bir sözlə, həyat öz axarındadır. Ümumiyyətlə, bu kəndlərdəki sabitlik və ondan doğan inkişaf, tərəqqi başqa bir yazının mövzusudur. Artıq bir neçə saat bundan öncə şənini vəsf etdiyim dağlardakı dağ vüqarlı oğulların yanındayam. Bu dağları əhatələyən möhkəm səngərlər isə Azərbaycan əsgəri üçün, sanki qala divarlarıdır. "Əsgər və səngər" mənim üçün ən uğurlu qafiyələrdən biridir. Səngər əsgər üçün ev, düşmən üçün qazılan qəbirdir. Səngər kişinin əsgərdən döyüşçüyə çevrilmə nöqtəsidir. Əsgər burada dayanıb torpağını qoruyur ki, üzərində gəzməyə haqqı olsun, Vətənin havasını qoruyur ki, udmağa nəfəsi olsun. Mənə görə Vətən həm də əsgərdən başlanır. Bugünkü qalib əsgərdən. 2020-ci ilin payızını hər bir azərbaycanlı üçün əbədi yaddaşlara həkk edən, bu dövrü Qələbə fəslinə çevirən, əsgər, bizim üçün yeni bir mövsüm yaratdın. Əsgər fəsli! Xalqımıza elə bir sevinc, qürur, xoşbəxtlik yaşatdın ki, onun ölçüsü, tayı-bərabəri yoxdur. Bu sevgi nə övlad, nə valideyn, nə də ki yar sevgisinə bənzəyir. Bu sevginin adı Qarabağa qovuşmaqdır, Şuşanın əlindən tutub onu dirçəltmək, Xudafərinə yenidən can vermək, Azıx mağarasındakı əcdadlarımızın tarixi kökünə yenidən qayıtmaqdır. Bir sözlə, BÖYÜK QAYIDIŞdır.

Ali Baş Komandanın dəmir yumruğu təkcə düşmənin belini qırmadı. O yumruq həm də Azərbaycan xalqının birlik və bərabərliyinin milli nişanəsinə çevrildi. Bu fikirləri əbəs yerə xatırlatmıram. Şəkərabad kəndindən olan sahibkarlar ordumuza mənəvi dəstək göstərmək məqsədilə uzun yol qət edib olduğumuz bölməyə gələndə bir daha inandım ki, bu iradəli xalq milli məsələlərdə bir yumruq kimi birləşə bilir. Bu, o demək deyil ki, ordumuzun hansısa kənardan gətirilən ərzağa, sovqata yaxud təminata ehtiyacı var. Sadə vətəndaş 44 günlük Vətən müharibəsində olduğu kimi, bu gün də ordunun yanında olmağı, ona dəstək göstərməyi özünə mənəvi borc hesab edir. Şəkərabadlı el ağsaqqalı Niqamət Heydərov deyir: "Bizim bura gəlməkdə əsas məqsədimiz əsgər və zabitlərimizlə birlik, bərabərlik nümayiş etdirməkdir. Xalq ordusunun yanında olmalıdır ki, onlar da nəyin uğrunda, hansı amal müqabilində döyüşdüyünü bilsin. Dövlət-xalq-ordu birliyi bizi Böyük Qələbəyə daşıdı".





Ayrı-ayrı şəhərlər, rayonlar, dostlar, qohumlar. Amma onlar burada – hərbi xidmətdə bir amal ətrafında birləşiblər. Zabit Elvin Cahangirov Salyan, Mahir Fərmanlı Beyləqan, əsgərlərdən Əmirah Səfərov Bərdə, Şəmistan Məmmədov Ağdam, İlkin Kərimzadə Sədərək rayonundandır. Onları birləşdirən dəyər "Vətən" adlı müqəddəsliyi qorumaqdır, onun təhlükəsizliyini təmin etməkdir. Hər birinin gələcək üçün planları, arzuları var. Vaxt olub ki, yaxınları, doğmaları üçün burunlarının ucu göynəyib. Amma müşahidə məntəqəsində hər şey unudulub. Bütün diqqət qarşı tərəfə – düşmənə yönəlib. Vətən onlar üçün ən əziz varlıq olub. Ata da, ana da, övlad da, sevgili yar da onlar üçün Vətən olub. Vətənlə bütövləşib, doğmalaşıblar.

Əsgər Əmirah Səfərov deyir ki, İkinci Qarabağ müharibəsində mənfur düşmən həmişəki xislətindən yenə də əl çəkmədi. Mülki insanlara qarşı müharibə cinayətləri törətdi. Ata yurdum Bərdə şəhəri qadağan olunmuş raketlərlə atəşə tutuldu. Doğmalarım, əzizlərim üçün çox nigaran idim. Şükür olsun, silahdaşlarım düşmənin cavabını döyüş meydanında layiqincə verdi. Çünki bizim davamız mülki insanlarla yox, erməni silahlı birləşmələrinə qarşı idi. Əsgər yoldaşlarımızla birgə hər gün Müdafiə Nazirliyinin döyüş əməliyyatları ilə bağlı təqdim etdiyi kadrlara baxırdıq, Ali Baş Komandanın xalqa etdiyi müraciətləri diqqətlə izləyirdik. Fəxr edirəm ki, 44 gün ərzində tarix yazan Azərbaycan Ordusunun sıralarında xidmət edən əsgərlərdən olmuşam.

Əsgər Şəmistan Məmmədov ikiqat sevinc yaşayır. Çünki işğaldan azad edilən torpaqlar sırasında onun ata-baba yurdu olan Ağdam şəhəri də var. Qəhrəman döyüşçü deyir: "Tale elə gətirdi ki, Naxçıvanda xidmət edərkən Ağdamın işğaldan azad olunması xəbərini eşitdim. Ali Baş Komandanın noyabrın 20-də xalqa etdiyi həmin müraciəti heç vaxt unutmayacağam. Həmin gün Ağdam da "Qarabağ Azərbaycandır!" – dedi. Yaşasın müzəffər Ali Baş Komandanımız və Ordumuz!

İndi əsas vəzifəm, döyüş tapşırığım qədim Naxçıvan torpağının sərhədlərinin təhlükəsizliyini təmin etməkdir. Xidmət etdiyim bölmədə hər cür şərait vardır. Payız aylarından başlayaraq bölmə üçün ehtiyat ərzaq və geyim təminatı da yaradılıb. Valideynlərimlə danışanda deyirəm ki, məndən nigaran olmayın. Burada əsgər yoldaşlarımızla qardaşlaşmışıq, doğmalaşmışıq. Bölməmiz üçün bu ilin yayında yeni bina tikilib, hər cür məişət şəraiti yaradılıb".

*Ön xətdə keçirdiyimiz bir neçə saat ərzində əmin oldum ki, şəxsi heyəti yenilməz edən bir neçə amil var. Məsələn, keçirilən təlimlərdə tökdükləri tər bu gün zəfərə çevrilib. Dövlət tərəfindən ən uca, əlçatmaz zirvələrdə belə, qışın soyuq günlərində müasir tələblərə cavab verən yataqxana binaları tikilib istifadəyə verilib. Müasir atıcı silahlarla, döyüş vasitələri ilə təmin olunan əsgər və zabitlərin dilində həm də bir qardaşlıq, yoldaşlıq, dostluq, səmimiyyət şüarı var: "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün!"*

**Muxtar RZAZADƏ**

# Tarix əzəli həqiqəti bir daha sübut etdi



*Daha bir qəhrəmanlıq dastanı tarix dərsliklərinin səhifələrində və millətin şüur yaddaşında qızıl hərflərlə yazılır. Amma bu dəfə yazanlar yazar və ya tarixçilər deyil, şanlı Azərbaycan əsgərləridir. Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək, tarixi torpaqlarını azad etmək üçün Ali Baş Komandanın hər zaman dediyi sözü yerinə yetirdi:* ***"Biz öz torpaqlarımızı hansı vasitələrlə olur olsun azad edəcəyik".***

Bəli, Azərbaycan Ordusu 27 sentyabr 2020-ci il tarixdə erməni təxribatının qarşısını almaq və əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücum əməliyyatına başladı.

Düşməninsə ağlında, xəyalında 1990-cı illərdəki zəif silahlanmış ordu qalmışdı. Bu onların tarixi səhvi, dayaz düşüncələri idi. Və ilk günlərdən ordumuz bir-bir öz dədə-baba torpaqlarını azad etməyə başladı. Qısa müddətdə müharibənin gedişi o qədər sürətlənmişdi ki, düşmən çaşbaş qalıb, sadəcə, "taktiki gediş edib geri çəkilirik" cümləsini özləri üçün şüar etmişdi. Müharibənin gedişi istər düşmən tərəfdən, istərsə də dünya mediası tərəfindən hibrid müharibə, 5-ci nəsil müharibəsi kimi təsvir olunurdu. Bilirsinizmi niyə? Çünki o texnikanı, texnologiyanı idarə edən də məhz igid Azərbaycan oğulları idi. 1990-cı illərdə əliyalın xalqa divan tutan mənfur düşmən artıq anlayırdı ki, o illərdə qucaqda didərgin düşmüş körpələr bu gün tank belində, əldə silah öz yurd-yuvalarına qayıdırlar və bu sübut olunub ki, Vətən eşqilə edilən dava, mücadilə hər zaman Qələbə ilə başa çatır.

"Torpaq, uğrunda ölən varsa, Vətəndir". Şəhidlərimiz oldu, biz onların qarşısında baş əyirik, onların ruhu hər zaman anılacaq, Azərbaycan var olduqca onlar yaşayacaqlar. Qazilərimiz var, onlar tarix yazan canlı əfsanələrdir, müharibənin şahidi olan bu insanlarla söhbət edən zaman düşüncələrdə yalnız bir şey formalaşır: qələbə necə qorxmazlıqla və şücaətlə əldə edilib və həqiqətən də, belə igid oğulları olan bu millət heç vaxt basılmaz.

Ali Baş Komandanın xalqa müraciətləri və nəticə etibarilə, şanlı Qələbə xəbəri bütün dünyanı lərzəyə saldı. Hətta Qələbə xəbərinin gecənin bir yarısı elan edilməsinə baxmayaraq, bütün Azərbaycan küçələrə axışdı. Xalqımızın qəlbindəki zəfər fərəhi, qələbə sevinci Azərbaycanı fərqli bir bayram havasına bürüdü. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımızı azad edən şanlı Ordumuz dünyaya bir daha sübut etdi ki, bu xalq, bu millət nəyə qadirdir. İstər ən müasir silahlardan istifadə etmək bacarığı, istərsə də yaxın döyüş növü üzrə aparılan əməliyyatlar bu Ordunun qarşısında dayanacaq bir qüvvənin olmadığını göstərdi. Bu həm də vahid şəkildə həyata keçirilən döyüş əməliyyatının düzgün qurulması və planlı şəkildə həyata keçirilən ssenari ilə bağlı idi.

Müharibənin gedişində yastığını Vətən daşı, yorğanını qar bilən, bizə hələ balaca, yaşlarımızdan öyrədilən ANA, VƏTƏN sözlərinin əsl mənasını yaşadan, ana qucağında həyatı dərk edib, Vətən qucağında qəhrəmanlıq göstərərək Azərbaycan bayrağını azad edilmiş torpaqlarda dalğalandıran, mərd oğullar, Allah Sizi qorusun!

**Qəzənfər BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

*Naxçıvan Dövlət Universitetində bu münasibətlə keçirilən tədbirdə əvvəlcə Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Hüquqşünaslıq ixtisası üzrə I kurs tələbəsi Yüksəl Əlizadə, həmin ixtisas üzrə qiyabi təhsil alan Orxan Kərimli və Teymur Osmanlının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

# Hərbçi tələbə ali təhsil ocağında fəxrlə qarşılanıb



Ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev 44 gün davam edən və şanlı Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən Qarabağ zəfəri münasibətilə tədbir iştirakçılarını təbrik edib. Vurğulanıb ki, qələbəyə Qarabağ müharibəsi dövründəki Ali Baş Komandan cənab İlham Əliyevin göstərdiyi yüksək liderlik keyfiyyətləri və Azərbaycan Ordusunun müasir hərbi vasitələr və silahlarla təchiz olunaraq yüksək əhval-ruhiyyə ilə mübarizəyə başlaması nəticəsində nail olunub. Rektor II Qarabağ döyüşlərində naxçıvanlı hərbçilərimizlə yanaşı, universitetdə təhsil alan tələbələrimizin də mərdliklə vuruşduqlarını, Şuşa uğrunda gedən döyüşlərdə də fəal iştirak etdiklərini diqqətə çatdırıb.

Şanlı Qələbədən sonra Naxçıvana qayıdan Məşqçilik ixtisası üzrə qiyabi şöbənin I kurs tələbəsi Fəxri Qazıbəyov da tədbirdə çıxış edib. Bildirib ki, oktyabrın 11-dən döyüşlərə qatılıb və xüsusi təyinatlıların dəstəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib. Qazimiz Azıx mağarasına girən ilk hərbçilər sırasında özünün də olduğunu qürur hissi ilə ifadə edib.

Rektor Vətən müharibəsində fəal iştirakına görə Fəxri Qazıbəyova Fəxri Fərman təqdim edib.

**Səadət ƏLİYEVA**

# Məhdud fiziki imkanlılar cəmiyyətə inteqrasiya olunurlar

***Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə əsası qoyulan və uğurla həyata keçirilən siyasət öz bəhrələrini verib. Ulu öndərin müəyyənləşdirdiyi həmin siyasət hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilir.***



Həmin tədbirlərin davamı kimi, Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2019-cu il 25 fevral tarixli Sərəncamının icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslər üçün sosial müavinətlər orta hesabla 100 faiz artırılıb. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanı ilə I dərəcəli sağlamlıq imkanları məhdud və ya bu kateqoriyadan olan 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib.

Naxçıvan Muxtar Respublikasında da məhdud fiziki imkanlıların cəmiyyətə inteqrasiyası, onların həyat səviyyəsinin yüksəldilməsi, bu qəbildən olan şəxslərin sağlamlıqlarının qeydinə qalınması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Naxçıvan şəhərində Əlillərin Bərpa Mərkəzinin, Uşaq Bərpa Mərkəzinin və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyət göstərməsi bu kateqoriyadan olan şəxslərin müalicəsinin və reabilitasiyasının təşkilində mühüm əhəmiyyətə malikdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant təhsil mərkəzinin yaradılması isə hərəkət qabiliyyəti məhdud şəxslərin təhsilə cəlbinə geniş imkanlar açıb.

Hazırda tənha ahıl və sağlamlıq imkanları məhdud 309 şəxsə evlərində sosial-məişət xidməti göstərilir, onların sosial problemlərinin həlli və vaxtaşırı tibbi müayinədən keçmələri təmin edilir. Bununla yanaşı, sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası məqsədilə cari ilin 11 ayında Əlillərin Bərpa Mərkəzində 143, Uşaq Bərpa Mərkəzində 163 sağlamlıq imkanları məhdud şəxsə tibbi xidmət göstərilib. Həmçinin sağlamlıq imkanları məhdud 52 şəxsə pansionatlara göndəriş verilib, 474 nəfər texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilib, 265 nəfər isə protez-ortopedik xidmətdən yararlanıb.

Məhdud fiziki imkanlı şəxslərin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin güclənməsinə əsaslı zəmin yaradıb. Cari ilin ötən dövründə bu kateqoriyadan olan 28 şəxs münasib işlə təmin edilib, 30 nəfər sosial xarakterli haqqıödənilən ictimai işlərə cəlb olunub, 59 nəfərə isə fərdi ailə təsərrüfatlarını formalaşdırmaq üçün köməklik göstərilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası isə bu kateqoriyadan olan uşaqların təhsil almasına, onların reabilitasiyasına, cəmiyyətə daha fəal inteqrasiyasına yeni imkanlar açıb. Hazırda bu qəbildən olan uşaqlardan 76-sı məktəbəqədər təhsil müəssisələrində, 1060-ı ümumtəhsil məktəblərində, 10 görmə məhdudiyyətli uşaq xüsusi ibtidai məktəbdə, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən 12 uşaq isə distant tədris prosesi vasitəsilə təhsilini davam etdirir. Cari il ərzində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud 290 şagird məktəbli geyimi və ləvazimatları, eləcə də qış geyimi ilə təmin olunub. Adıçəkilən proqramın icrası cari ildə də davam etdirilir. Bu günlərdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Rabitə və Yeni Texnologiyalar nazirliklərinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud daha bir uşaq – Gülmirə Abbasova distant tədrisə cəlb edilib. Şərur rayonu Çərçiboğan kəndində yaşayan Gülmirə Abbasova zəruri dərs ləvazimatları, tədris vəsaitləri, məktəbli geyimi, həmçinin texniki avadanlıqlarla təmin olunub.

Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrasına uyğun olaraq məhdud fiziki imkanlı qadınlar tərəfindən toxunmuş 4100 cüt yun corab, 2900 ədəd yun boyunluq və 920 ədəd şərf hərbi hissələrə təhvil verilib.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə Naxçıvan şəhərindən və rayonlardan sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların və müxtəlif kateqoriyadan olan fiziki imkanları məhdud şəxslərin cəlbi davam etdirilir. Cari ilin ötən dövründə mərkəzdə fəaliyyət göstərən bütün bölmələrə bu kateqoriyadan olan 226, həmçinin mərkəzin defektoloji bölməsinin Şərur rayon filialına 31, Ordubad rayon filialına isə 32 sağlamlıq imkanları məhdud uşaq cəlb edilib. Mərkəzin defektoloji bölməsinin təlim məşğələlərinə 94, kinekt oyunlar otağına 38, məhdud fiziki imkanlıların kompüter kurslarına 39, əmək terapiyasına 37, musiqi terapiyasına 39, psixoloji dəstək xidmətinə 32, təlim-bərpa məşğələlərinə isə 10 sağlamlıq imkanları məhdud uşaq cəlb olunub.

Muxtar respublikada sosial-iqtisadi sahədə dinamik inkişafın təmin olunması bundan sonra da sağlamlıq imkanları məhdud olan şəxslərin rifahının daha da yaxşılaşmasına, onların cəmiyyətə aktiv inteqrasiyasına imkan verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası 2020-ci ilin noyabr ayında da muxtar respublikada fəaliyyət göstərən teleradioların fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərman və sərəncamlarından, Dövlət proqramlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını diqqətdə saxlamışdır.***

# Vətənpərvərlik ideyalarının təbliği teleradioların əsas fəaliyyət prinsipini təşkil etmişdir

Naxçıvan Dövlət Televiziyası tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlər, Dövlət proqramlarının icrası ilə bağlı görülən işlərə həsr olunmuş 19 telematerial hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, teleradiolarda vətənpərvərlik mövzusunda materiallara üstünlük verilməsi noyabr ayında da davam etdirilmişdir. Bəhs edilən dövrdə Naxçıvan Dövlət Televiziyası Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatlarında əldə edilən uğurlar barədə tamaşaçılara dolğun məlumatlar vermiş, noyabrın 10-da Vətən müharibəsinin şanlı Ordumuzun qələbəsilə başa çatması ilə əlaqədar muxtar respublika sakinlərinin qələbə sevincini operativ şəkildə efirə təqdim etmişdir.

Noyabr ayında verilişlərin növbəti 104 sayı efirə təqdim olunmuşdur. Qeyd edək ki, ötən ay vətənpərvərlik ruhunda yayımlanan verilişlər efirin 73, digər proqramlar isə 27 faizini təşkil etmişdir.

Naxçıvan Dövlət Radiosu ay ərzində 561 saat efirdə olmuşdur. Ümumi efirin 51 faizini radionun öz istehsalı olan proqramlar, verilişlər, 49 faizini isə digər hazır materiallar təşkil etmişdir. Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları və ordumuzun əldə etdiyi şanlı Qələbə geniş şəkildə işıqlandırılmışdır. Noyabr ayında radio efirində 3 yeni layihə dinləyicilərə təqdim edilmişdir.

Şura tərəfindən aparılan monitorinqə əsasən demək olar ki, "Kanal 35" televiziyası Ordumuzun Ermənistan ordusu üzərindəki tarixi qələbəsini, o cümlədən dinc yolla qaytarılan əzəli torpaqlarımız ilə bağlı məlumatları mütəmadi olaraq tamaşaçılara çatdırmış, bu mövzuda 10-dan artıq videoçarx hazırlanaraq efirə təqdim olunmuşdur. Muxtar respublikamıza həsr edilmiş videomaterialların yayımı istiqamətində milli dəyərlərimiz, tamaşa və konsert proqramları da daxil olmaqla, 74 videomaterial yayımlanmışdır ki, bu da efirin 31,1 faizini təşkil etmişdir. Bununla yanaşı, televiziyanın dublyaj redaksiyası tərəfindən 4 sənədli film dublyaj olunaraq efirə təqdim edilmişdir.

Şura noyabr ayında "Naxçıvanın səsi" radiosunun efirini müntəzəm olaraq izləmiş və təhlil etmişdir. Bəhs edilən dövrdə radio 240 saat efirdə olmuşdur. Efir müddətində 110 saat canlı yayım proqramları və verilişləri hazırlanaraq dinləyicilərə təqdim edilmişdir. Vətən müharibəsi ilə əlaqədar olaraq bütün proqramların formatı dəyişdirilmiş, yalnız vətənpərvərlik ruhunda musiqilər, ədəbi-bədii kompozisiyalar efirə təqdim edilmişdir.

Televiziya və Radio Şurasının 2020-ci il Tədbirlər Planına əsasən noyabr ayında da Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin teleradiolarda fəaliyyəti mütəmadi olaraq izlənilmiş, aylıq hesabat hazırlanmışdır.

Hesabat dövründə şura tərəfindən sosial şəbəkələrdə Naxçıvanla bağlı 500-dək foto və video, həmçinin xəbər paylaşmışdır. Eyni zamanda 124 xəbər, 20 müsahibə, 1 analitik material və fotoreportaj hazırlanaraq mərkəzi mətbuatda yayımlanması təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Televiziya və Radio Şurası***

# Ordubadçay vadisinin yeni abidələri

Naxçıvan Muxtar Respublikası zəngin tarixə, mədəniyyətə malikdir. Son bir qərinəyə yaxın dövr ərzində Naxçıvan tarixinin öyrənilməsi diqqət mərkəzində saxlanılıb, bu sahəyə böyük diqqət və qayğı göstərilməsi prioritet vəzifəyə çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 23 avqust 2003-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyəti və Elmi-Tədqiqat institutları üçün bina istifadəyə verilərkən demişdir: ***"Naxçıvanda yerin altı da, üstü də təbii sərvətdir. Naxçıvanda çox qədim tarixə malik olan mədəniyyət nümunələri aşkar edilib... Ona görə də bunların hamısının tədqiqata, araşdırmaya ehtiyacı vardır".***



*Aşağı Əndəmic orta əsr yaşayış yeri və oradan tapılmış keramikalar*

Ali Məclisin Sədri tərəfindən 2005-ci il dekabrın 6-da imzalanmış "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamın icrası istiqamətində tədqiqatçıların qarşısında çox mühüm vəzifələr qoyulub, onların elmi fəaliyyətinin konkret istiqamətləri müəyyən edilib. Hər il olduğu kimi, cari ildə də AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Antik və orta əsrlər arxeologiyası şöbəsi tərəfindən bu istiqamətdə tədqiqatlar aparılaraq bir neçə abidə qeydə alınıb, kəşfiyyat xarakterli tədqiqatlar həyata keçirilib.

Bəhs olunan dövrdə iş planına uyğun olaraq Ordubadçay vadisindəki Aşağı Əndəmic, Yuxarı Əndəmic, Nüsnüs kəndlərinin ərazisində də kəşfiyyat xarakterli arxeoloji tədqiqat işi aparılıb. Tədqiqat zamanı müəyyən olunub ki, uzunluğu 24 kilometr, hövzəsinin sahəsi 42 kvadratkilometr olan Ordubadçayın mənbəyi Zəngəzur silsiləsindən (3200 metr hündürlükdən) başlanır. Bu çay şimaldan cənuba doğru Ordubad şəhərini iki hissəyə bölür. Əsasən, yeraltı sular və qar suları ilə qidalanır. Suvarmada geniş istifadə edildiyindən ilin çox vaxtı Ordubad şəhərindən aşağı axın olmur. Bu çay boyundakı Aşağı Əndəmic, Yuxarı Əndəmic, Nüsnüs kəndlərinin ərazisində yeri müəyyən edilən və qeydə alınan yeni abidələri yaşayış yeri, qəbir abidəsi, təbiət abidəsi, qədim karvan yolu olmaq üzrə bir neçə qrupa bölmək olar.

Yaşayış yerlərindən birinin qalıqları Aşağı Əndəmic kəndinin ərazisində köhnə yoldan aşağıda qeydə alınıb. Sahəsi 2 hektara yaxın olan yaşayış yerindəki tikili qalıqları tamamilə dağılsa da, bəzi yerlərdə nisbətən salamat qalmış divar qalıqlarını müşahidə etmək olur. Orada aparılan tədqiqat zamanı orta əsrlər dövrünə aid şirli və şirsiz keramika məmulatları yerüstü material olaraq əldə edilib. Yerli əhalinin verdiyi məlumata görə, yaşayış yerinin yuxarısından keçən, el arasında karvan yolu kimi tanınan yol Gənzə kəndinin ərazisindəki "Əlidaş" adlanan yerdən başlayır və Nüsnüs kəndinin ərazisindəki "Deyağa" adlı yerə qədər uzanaraq Nüsnüs, Aşağı Əndəmic, Yuxarı Əndəmic, Gənzə kəndlərini birləşdirir.

Qəbir abidələri Aşağı Əndəmic kəndinin ərazisində qeydə alınıb. Onlardan birinin sahəsi 1,5 hektar, digəri 0,5 hektardır. Birinci qəbiristanlıqdan fərqli olaraq ikinci qəbiristanlıqda ətrafına iri daşlar düzülmüş qəbirlər də müşahidə olunur. Hər iki abidədəki qəbirlərin əksəriyyəti təbii aşınma nəticəsində dağılsa da, bəzi qəbirlərin başdaşıları nisbətən salamat qalıb. Dağılmış qəbirlərə əsasən onların üzərinin sal daşla örtüldüyü müəyyən edilib. Qəbirlərin quruluşu hər iki abidənin orta əsrlər dövrünə aid olduğunu göstərir.



*Gənzə, Aşağı və Yuxarı Əndəmic, Nüsnüs kəndlərini birləşdirən karvan yolu*

Təbiət abidələri içərisində Nüsnüs kəndinin ərazisindəki Ov dərəsi mağarasını, Nəbi qalasını qeyd etmək olar. Mağara dərənin kənarında yerləşir və bir-birinə bitişik iki hissədən ibarətdir. Hər ikisinin girişi eyni istiqamətdəndir. Mağaralardan birinin içərisi bir qədər iri, digəri isə nisbətən kiçikdir.

Nəbi qalası dağlar qoynunda, əlverişli strateji-coğrafi mövqedə yerləşir. Oradan Ordubadçay vadisinin kəndlərini aydın müşahidə etmək, nəzarətdə saxlamaq mümkündür. Hər tərəfdən sıldırım qayalıqlarla əhatə olunduğu üçün onun ətrafına heç bir müdafiə istehkamı çəkilməyib. Abidənin içərisində keramika məmulatları aşkar edilməsə də, istehkam xarakterli tikililərin dağılmış qalıqlarını müşahidə etmək olur. Qalanın hansı səbəbdən belə adlanması haqqında yerli əhali arasında heç bir əlavə məlumat yoxdur. Onlar bu təbiət abidəsini bəzən "Nəbi daşı" da adlandırırlar.

Ordubadçay vadisində yeni arxeoloji abidələrin qeydə alınması sonda onu qeyd etməyə əsas verir ki, qədim tarixə və mədəniyyətə malik olan Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində olduğu kimi, bu ərazidə də bizə məlum olmayan, zəngin tariximizi, mədəniyyətimizi öyrənmək sahəsində özünəməxsus yer tutan abidələrimiz qalmaqdadır. Onların aşkar edilərək tədqiqata cəlb olunması hər birimizin qarşısında duran ən aktual məsələlərdəndir.



*Ov dərəsində mağara*

Çünki bu vacib məsələnin həlli ilə adıçəkilən ərazidə məskunlaşmış insanların məişət və təsərrüfat həyatına, maddi və mənəvi mədəniyyətinə aid yeni faktlar əldə etmək, tariximizi daha dərindən öyrənmək mümkündür. Həmin abidələrin mövcudluğu Naxçıvanda turizmin inkişafı sahəsində də mühüm əhəmiyyət daşıyır.

**Toğrul XƏLİLOV**
**Aysel İSMAYILOVA**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları***

# Zamandan danışan zaman...

## Oçerk

***O güləndə dünya da gülürdü, el də, oba da, ev də, eşik də. Deyirdi, dünyanı gülmək xilas edəcək. Xilas etməsə də, ən azından ona bir köməkliyi dəyəcək. Gülmək ən sevdiyi əyləncəsi idi. Ətrafındakılar onu "gülən siması" ilə xatırlayır. Bir də qoçaqlığı, çevikliyi, dəlisovluğu ilə. Söhbət Zamandan gedir. Zaman Məmmədovdan: Günnüt zəfərində payı olan, Türkiyə Cümhuriyyətində təşkil olunan döyüş təlimlərində göstərdiyi məharətə görə 18 dövləti təmsil edən heyət arasında birinciliyi əldə edən Naxçıvan "N" hərbi hissənin xüsusi təyinatlısı, eyni zamanda II Qarabağ döyüşlərinin ön cəbhə təyinatlısı şəhid. Kəngərli rayonunun Şahtaxtı kəndində Zamanın boya-başa çatdığı evin qapısını döymək üçün çox götür-qoy edirəm. Ürək eləmirəm qapını döyməyə, sorğu-sual etməyə. Bir tərəfdən də qürur duyuram ki, belə igidin qapısının qarşısında dayanmışam, ailəsini tanımağa, onların dilindən Zamanı tanıtmağa gəlmişəm. Hələ adını eşidəndən, videogörüntülərdə tanıyandan onu Milli Qəhrəmanımız Yusif Mirzəyevə bənzədirdim. Zaman hər cəhəti ilə onu xatırladırdı. Elə bu səbəbdən birinci ondan (hələ haqqında yazılacaq minlərlə belə mərd oğullarımız var) yazmaq istədim. Onu tanımaq və tanıtmaq istədim. Şəhid evinin qonağı olub "Onu layiq olduğu kimi, oxucularıma təqdim edə biləcəyəmmi?" sualı da düşündürmür desəm, səmimi olmaram. Bu düşüncələrlə cəsarət toplayıb, şəhid evinin qapısını döyürəm… Sizi Zaman haqqında söhbətimizlə baş-başa buraxıram...***

### *Günnütlə gələn zəfər Qarabağın qələbəsi ilə bitdi…*



Habil Məmmədli (şəhid atası. Söhbətimizə nə mən başlaya bilirəm, nə də ki şəhid atası. Otağa çökmüş sakitlikdən sonra): – 1995-ci il avqust ayının 3-ü idi. Dünyaya gələndə çox balaca, çəlimsiz uşaq idi. Zamanın adını özüm qoymuşdum. Bir dəfə mənə sual verdi ki, ata, ad seçərkən nə düşünüb Zaman adı verdin mənə? Dedim, ay oğul, istəyirəm ki, gələcəkdə elə bir oğul olasan ki, adının mənası öz həyat və fəaliyyətin ilə səsləşsin, bütün zamanları əhatə etsin. Zaman durduqca sən də zamanın fövqündə dayanasan. Elə də oldu. Zaman zamanın fövqündə dayanmağı bacardı.

Onun igidliyi burada hamıya məlum idi. Həyətdə özünə idman "kompleksi" düzəltmişdi. İdmanla məşğul olurdu. Heç nədən qorxmazdı. Hey deyərdi, hərbçi olacağam. Düşmənin vuran əllərini kəsəcəyəm. Günnütə gedən zaman bizə dedi ki, Batabata təlimə gedirəm. Üç gün xəbər ala bilmədik. Sən demə, 3 gün mühasirədə olub, özünü gizlədib, amma işini bacarıb, koordinatları müəyyən edib bizim tərəfə ötürmüşdü. Evə gələndə, Günnüt sevincini paylaşanda dedi: "Qarabağa da gedəcəyəm, hiss edirəm. Bir naxçıvanlı kimi ayağım dəyəcək o torpaqlara. Sonda da arzuma çatacağam" (arzusu torpaqları qaytarıb şəhidliklə dönmək idi). Həmin gün uşaqlıq dostu Pənahla birgə gedirdi təlimə. Daha doğrusu, biz təlim bilirdik. Çünki elə demişdi bizə. Möhkəm idi, iradəli idi. Dövlət sirrini saxlamağı bacarırdı. Bu barədə öz ailəsinə belə, məlumat verməzdi. Bircə onu dedi: "Ata, o ala-bula toğlunu Pənaha qurban deyirəm, kəsərsiniz qayıdanda". Dedim, bəlkə, zarafat edir. Bu gün öyrənmişəm ki, zarafat deyilmiş, Pənah yaralıdı və biz də onun qayıtdığı gün həmin toğlunu kəsəcək, Zamanın arzusunu yerinə yetirəcəyik.

### *Zamanı gələcək, "igid olacaqsan" deməkdir...*

Gülçin Allahverdiyeva (riyaziyyat müəllimi): – Zamanın məktəb xatirələri çoxdur (məktəb şəkillərinə baxa-baxa söhbət edirik). Çox fərqli uşaq idi. Hamıdan seçilirdi. Deyəndə dərslərini daha yaxşı oxu, müəllim ol, Zaman, deyirdi, müəllim olsam, düşməni öldürə bilərəm heç? Mən hərbçi olacağam. Mübariz İbrahimova qarşı xüsusi məhəbbəti vardı. Özünə ideal götürmüşdü. Həmişə deyirdi, onun kimi bir batalyon erməni məhv edəcəyəm. Hər dəftərinin də içinə bayraq şəkli yapışdırırdı. İndi başa düşürəm ki, o, Vətəni necə də böyük məhəbbətlə sevirmiş. Elə uşaqlıqdan deyirdi şəhid olacam. Bir payım olsun torpağımda. O bunu bilirmiş (Qəhərlənir). Günnüt qələbəsində onu ziyarət edib təbrik edəndə birinci gətirib qol saatını göstərdi mənə. Dedi, bilirsiniz, müəllimə, bu nədir? Gülərək, saat – dedim, dedi: "Yox, bu, sadəcə, saat deyil. Bu Ali Məclis Sədrinin bizə göstərdiyi etimaddır, inamdır. Zamanı gələcək, "igid olacaqsan" deməkdir. Mənası çoxdur. Dəyəri başqadır. Fəxrdir". Beləcə, hər şeyin dəyərini, qiymətini bilən oğul idi Zaman.

### *Döyüşə gedəndə gülər igidlər...*

Pərnaz Bayramova (bibisi qızı): – Eh, Zaman haqqında danışmağa sözüm çoxdur. Uşaqlıqdan bir böyümüşük. Fədakar, ailəcanlı idi. Ailədə onu sevməyən yoxdur. Deyib-gülən oğlan idi. Döyüşdə bütün kadrlarda gülüb. Hər kəsə müsbət enerji verib (döyüş yoldaşları etiraf edir). Hələ şəhid olmamışdan 3 gün qabaq zəng vurmuşdu mənə. O biri tərəfdən güllə səsləri susmurdu. Dedim, Zaman, haradasan? Dedi bacı, toydu burada. Şənlik edirik. Xəbərləri Ali Baş Komandanımızdan alarsınız (Şuşaya ilk Zamangil girmişdi kəşfiyyata). Dedim, ay qardaş, de, vallah, kimsə bir söz demərəm. De, qoy mən də bilim. Üstümə hirsləndi: "Olmaz. Orada da paylaşmayın oradan-buradan aldığınız məlumatları". Dedim, bacın qurban, arxada ol, ön cəbhəyə getmə barı. Güldü, dedi: – Mənə yaraşmaz. Elə son danışığımız onda oldu. Hə, bir də ölümündən qabaq dostu Rahibə (ən ürəkli onu bilir) zəng vurub deyir: "Mənim üç yerdə bayrağım var. Öz bayraqlarımı (birini Türkiyədə təlimdə təqdim etmişdilər, ikisini də özü almışdı) örtərlər üstümə, döyüş bıçağım da elə həmin yerdədir. Onu da anama verərsən yadigar saxlayar, paltarlarımın altında isə hərbi formada gülən şəklim var. Onu böyütdürərsiniz. Hamı görsün ki, mən gülə-gülə şəhid oluram. Fəxr edərsiniz ki, siz şəhid qarşılayırsınız. "Arzuna çatdın, qardaş, rahat uyu", – deyir Pərnaz.

### *Mühasirədən Zamanla qurtulduq...*

Mirhəşim Seyidov (döyüş yoldaşı, mərmi səsindən eşitmə qabiliyyətini itirib): – Bir getdik döyüş bölgəsinə. Hadrutu azad etməklə başladıq. Əvvəlcə, üzərimizə gələn raketlərdən qorunmaq üçün sürünə-sürünə gedəndə Zamanı aşağı endirə bilmirdik. Dik gedirdi, hər kəsə ruh yüksəkliyi verirdi. Heç vaxt unutmayacağım bir epizodu danışım sizə. 50 nəfərlik heyətlə saatlarla Axullu kəndi (Xocavənd rayonu) istiqamətində mühasirəyə düşmüşdük. Zaman 10 nəfərlik heyət ilə bizi axtarıb tapdı. Tapanda onunla qeyri-ixtiyari möhkəmcə qucaqlaşdıq. Ətrafdakı düşmən hiyləsini unutduq. Silahdaşlarımın şücaət və bacarığı düşmən mühasirəsini yarmağı asanlaşdırdı. Zaman o qədər çevik idi ki, heyətlə birlikdə o, artıq Qırmızı Qaya, Azıx, Tuğ, Böyük Tağlar, Zoğalbulaq və digər ərazilərə gedib koordinatları öyrənib, düşmənin hərbi texnikalarının olduğu yerləri müəyyən etmişdi. Kəşfiyyat zamanı düşmən pilotu başımızın üstündə dayandığı üçün çıxa bilmirdik. Nəticədə, 5 nəfərlə birlikdə 4 gün torpağın altında qalmalı olduq. Və nəhayət, hava şəraitinin korlanması işimizi asanlaşdırdı. Beləliklə, mövqelərimizi möhkəmləndirdik. Anar Əliyev bizim komandir idi. O, şəhid olandan sonra Əlimirzə Sadiqov bizə rəhbərlik etdi. Komandirimiz yaralanarkən Zaman onu çiyninə alıb döyüş bölgəsindən uzaqlaşdırmışdı. Həmin komandir hazırda xəstəxanadadır. Elə bir kəlmə deyib ki, ayağa duran kimi gedib



Zamanın ailəsini tapıb anasının əllərindən öpəcəyəm ki, elə cəsarətli oğul böyüdübsən. Hələ sizə Türkiyədə təlimdə olanda göstərdiyi rəşadətdən danışım. Ağrı dağına eniş vaxtı cəsarəti ilə hər kəs tərəfindən alqışlandı. Döyüş taktikasında çevikliyinə görə dəfələrlə fəxri fərmanlar almışdı. Gülə-gülə videoları var. Zamanla ayrılığımız onun ölümündən üç gün əvvəl məni xəstəxanaya aparanda oldu. Vəziyyətim yaxşı olmadığı üçün xatırlaya bilmirəm necə sağollaşdıq.

### *İlk ayaq basdığı Qarabağ torpağı Zamanı unutmayacaq!*

Yusif Tağızadə (son anlarına qədər yanında olan döyüş yoldaşı. Telefonla əlaqə saxlayırıq. Zamanın adını çəkən kimi bir az duruxur, sonra sözə başlayır): – Zaman igid oğlan idi. Çox cəsarətli, qorxmaz idi. Şuşa ərazisində ayağından yaralandı. Yanında bir mən, bir də başqa döyüşçü yoldaşı vardı. Nə qədər etdiksə, xeyri olmadı, qan çoxaldı. Neytral zona olduğu üçün kömək də çağırmaq mümkün deyildi. Qan çox gedirdi. Heç nə demədi, heç nə söyləmədi. Elə bir üzündə şəhidlik nuru vardı. Sanki hazır idi vidalaşmağa. Gözlərindəki qürur əyilməzlik simvolu idi. Əsl vətənpərvər bir naxçıvanlı kimi özünü aparırdı son saniyələrdə... Beləcə, əbədiyyətə qovuşdu. Zaman II Qarabağ müharibəsində Ordumuzun həlledici qələbələrə imza atan, xüsusi təyinatlı, kəşfiyyat sirlərini zamanında və düzgün verən əsas qüvvələrindən biri idi. Qarabağ torpağına ilk ayaq basan naxçıvanlılardandır. O, müqəddəs torpaqlara ilk addım atan, qələbəni çalıb-oynamaqla əsl bayram kimi qeyd edən (videogörüntü var) naxçıvanlılardandır. Şuşa qələbəsini ilk qeyd edən mübariz ruhlu igidlərimizdəndir. Arzusuna oynaya-oynaya, gülə-gülə tələsən qəhrəmandır. Bu xalq onu unutmayacaq! Naxçıvanlılar onu unutmayacaq! İlk ayaq basdığı Qarabağ torpağı Zamanı unutmayacaq! Tarixin hər zamanı Zamandan danışacaq. Tarix isə Zamandan danışan zamanı unutmayacaq.

✍ **Türkan HÜSEYNLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin noyabr ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3716 | 275,0 | 275,0 | 100,0 |
| 2. | Şərur rayonu | 1212 | 86,1 | 86,1 | 100,0 |
| 3. | Babək rayonu | 1581 | 111,8 | 111,8 | 100,0 |
| 4. | Ordubad rayonu | 1019 | 72,0 | 72,0 | 100,0 |
| 5. | Culfa rayonu | 673 | 48,9 | 48,9 | 100,0 |
| 6. | Kəngərli rayonu | 635 | 46,3 | 46,3 | 100,0 |
| 7. | Şahbuz rayonu | 396 | 28,2 | 28,2 | 100,0 |
| 8. | Sədərək rayonu | 78 | 5,5 | 5,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 28427 | 2558,4 | 2554,3 | 99,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **37737** | **3232,2** | **3228,1** | **99,9** |

**Qeyd:** Noyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 37 milyon 737 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 232 min 200 manat olmuş, cəmi 3 milyon 228 min 100 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,9 faizini təşkil edir.

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Mağazadan alınan və qüsurlu olduğuna görə təyinatı üzrə istifadə edilə bilməyən malın satıcıya qaytarılması ilə bağlı dəfələrlə müraciəti cavabsız qalırsa, istehlakçı hansı məhkəməyə müraciət edə bilər və nə qədər dövlət rüsumu ödəməlidir?*

***Cavab:*** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 36.9-cu maddəsinə (Maddə 36. İddiaçının seçilməsinə görə aidiyyət) görə istehlakçının hüququnun müdafiəsi haqqında iddialar iddiaçının yaşadığı yerə görə, yaxud müqavilənin bağlandığı və ya icra edildiyi yerə görə verilə bilər. Yəni iddiaçı yaşadığı yerin məhkəməsinə, ya da malı aldığı mağazanın yerləşdiyi (bu halda müqavilənin bağlandığı və icra edildiyi yer mağaza olduğu üçün) yerin məhkəməsinə müraciət edə bilər.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 9.1.5-ci maddəsinə (Maddə 9. Məhkəməyə verilən iddia ərizələrinin və şikayətlərin, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrin, məhkəmə əmri haqqında ərizələrin və məhkəmə qərarları barəsində şikayətlərin verilməsinə, məhkəmə tərəfindən sənədlərin surətinin təkrar verilməsinə görə dövlət rüsumundan azad edilməsi və dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri) görə isə istehlakçıların hüquqlarının pozulması ilə əlaqədar verdikləri iddialar üzrə iddiaçılar dövlət rüsumu ödəməkdən azad olunurlar.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

* * *

***Sual:** Alınan mal istehlakçının tələblərini ödəmirsə, həmin mal lazımi keyfiyyətli malla dəyişdirilə bilərmi?*

***Cavab:*** İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən lazımi keyfiyyətli qeyri-ərzaq malı öz formasına, ölçüsünə, rənginə görə istehlakçıya (alıcıya) yaramırsa və ya digər səbəblərə görə təyinatı üzrə istifadə oluna bilməzsə, alıcının onu alındığı yerdə uyğun mala dəyişdirmək hüququ vardır.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 901